# NAFTALAN TURİZM MƏKANINA ÇEVRİLİB





**2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağı giriş sözü ilə açan Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Rövşən İbrahimov iştirakçıları salamlayaraq, respublikada gedən davamlı inkişafdan, şəhərdə aparılan abadlıq-quruculuq işlərindən və yeni layihələrdən ətraflı danışaraq, qeyd etdi ki, dövlət başçısının göstəriş və tapşırıqlarını fəaliyyət proqramı kimi qəbul edən Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən cari ildə şəhərdə bir çox mühüm işlər görülmüşdür.**

Xüsusilə hesabat dövrünə təsadüf edən və şəhər əhalisinin böyük sevincinə səbəb olan ən mühüm hadisə ötən ilin iyun ayının 05-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naftalan şəhərinə 5-ci dəfə növbəti səfəri və səfərdən sonra verdiyi tapşırıq olmuşdur. Belə ki, ölkə başçısı Naftalana səfərindən sonra şəhər üzrə məktəbəqədər yaşlı uşaqların sayının çox, yalnız 280 uşağın məktəbəqədər təhsilə cəlb olunma imkanı olduğunu nəzərə alaraq yeni 200 yerlik məktəbəqədər təhsil müəssisəsinin tikintisi məqsədilə müvafiq sərəncam imzalamışdır. Hazırda yeni körpələr evi-uşaq bağçasının tikintisi işləri davam etdirilir. Bütün bunlar dövlət rəhbərinin şəhərimizə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə ötən ilin iyul ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalının növbəti ünvanı Naftalan şəhəri olmuşdur. Festivalda Mədəniyyət Nazirliyinin 15 regional mədəniyyət idarəsinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qrupları konsert proqramı ilə çıxış etmiş və festival iştirakçılarının çıxışları tamaşaçılar tərəfindən, xüsusən də xarici turistlər tərəfindən alqışlarla qarşılanmışdır.

Dövlət başçısının tapşırığına əsasən ötən il də müəyyən olunmuş müddət ərzində əhalinin icbari tibbi müayinəsi yüksək keyfiyyətlə həyata keçirilmişdir. Müayinə dövründə 7 mindən çox sakinin pulsuz tibbi müayinədən keçməsi təmin edilmişdir. Müayinələr zamanı xəstəlik aşkar edilənlərdən 1285 nəfərə ambulator, 57 nəfərə isə stasionar müalicə təyin olunmuşdur.

Yeni şəhər Xəstəxanasının tikintisi Prezident cənab İlham Əliyevin 2013 və 2018-ci illərdə imzaladığı sərəncamlara əsasən tikilmişdir. Xəstəxana 1,2 hektar ərazidə yerləşir. Tikintinin ümumi sahəsi 8 min kvadratmetrdən çoxdur. Xəstəxanada cərrahiyyə, doğum bloku, doğumdan sonrakı fizioloji və hamiləliyin patologiyası şöbələri yaradılmışdır. Bu müəssisənin laboratoriya şöbəsi ən müasir avadanlıqla təchiz olunmuşdur. Bu da laborator müayinələri yüksək keyfiyyət, dəqiqlik və qısa müddətə aparmağa imkan verir. Burada 25 çarpayılıq terapiya, 10 çarpayılıq cərrahiyyə, 10 çarpayılıq doğum və 5 çarpayılıq reanimasiya, həmçinin şüa diaqnostika, qəbul, inzibati, poliklinika şöbələrinin fəaliyyəti nəzərdə tutulmuşdur. Ancaq kadr çatışmazlığından qeyd etdiyimiz şöbələrdən bəzisinin hazırda fəaliyyət göstərməsi mümkün olmamışdır.

Prezident cənab İlham Əliyevin sahibkarlığın inkişaf etdirilməsi, sərmayələrin cəlb edilməsi və yeni iş yerlərinin açılması ilə bağlı tapşırıqları diqqət mərkəzində saxlanılmışdır. Şəhər İcra Hakimiyyəti tərəfindən bu istiqamətdə müvafiq işlər görülmüş və hazırda da işlər aparılır.

Ölkə başçısının Naftalan kurortunun inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrin uğurlu icrası və Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində Naftalan özünün yeni inkişaf dövrünə qədəm qoymuşdur. Bu gün Naftalan həm müalicəvi neftinə, həm də müasir turizm infrastrukturuna görə turistlərin xüsusi diqqətini daha çox cəlb edən kurort şəhərlərindən birinə çevrilmişdir.

Çıxışının sonunda Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Rövşən İbrahimov qeyd etdi ki, göründüyü kimi 2018-ci il Naftalan şəhəri üçün bir çox uğurlarla yadda qaldı. Aparılan quruculuq və abadlıq işləri şəhəri hər ötən gün daha da gözəlləşdirir və yerli sakinlərlə yanaşı, şəhərə gələn qonaqlara da xoş ovqat bəxş edir. Tam əminliklə bildirmək olar ki, 2019-cu ildə də cənab Prezidentin tapşırıq və tövsiyələrinə uyğun olaraq şəhərdə sahibkarların, iş adamlarının fəaliyyəti üçün əlverişli şərait yaradılması, yeni investorların cəlb edilməsi, ən əsası əhalinin məşğulluğunun təmin edilməsi üçün yeni iş yerlərinin yaradılması şəhərdəki bütün dövlət qurumlarının fəaliyyətinin ayrılmaz tərkib hissəsi olacaq və bu istiqamətdə öz fəaliyyətini daha da sürətləndirəcək.

Məruzə ətrafında çıxış edənlərdən Şəhər Maliyyə Şöbəsinin rəisi Saleh Tağıyev, DSMF-nin Naftalan şəhər şöbəsinin müdiri Eyvaz Nəcəfov, “Azbiznesservis” MMC-nin Garabag Resort Spa otelin menecer müavini Orxan Əhədov gördükləri işdən ətraflı məlumat verdi.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Vəfadar Bağırov Azərbaycanda gedən davamlı inkişafdan, infrastrukturların yeniləşməsindən və irimiqyaslı layihələrin gerçəkləşməsindən ətraflı söhbət açdı.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**